**UOT - 6363238**

# MİL – QARABAĞ CİNSLİ QOYUNLARIN BONİTİROVKASI, YUN VƏ DİRİ ÇƏKİ MƏHSULDARLIĞI

**T.H.SADIQOV**
**Abşeron Heyvandarlıq Təcrübə Stansiyası**

*Məqalədə Mil - Qarabağ bölgəsində yetişdirilən yüksək məhsuldar yerli iqlim şəraiyinə uyğunlaşmış yağlıquyruq,yarımqaba yunlu ətlik -yunluq və südlük istiqamətli Mil - Qarabağ qoyun cinsinin bonitirovkasından, yun və diri çəki məhsuldarlığından bəhs edilir.Uzun illər apardığım elmi - tədqiqat ,seleksiya və damazlıq işlərinin nəticələri məqalədə öz əksini tapmlşdır.*

***Açar sözlər**: Bonitirə, diri çəki və yun məhsuldarlığı.*

Respublikamızda yüngül sənayenin inkişaf etdirilməsi ilə əlaqədar olaraq yarımqaba növ yun xammalına və əhalinin ucuz və tez yetişən ət məhsuluna olan tələbatın ildən - ilə artması qaba və yarımqaba yunlu tez yetişən qoyun cinslərinin inkişafına geniş yer verilməsi qarşıya bir məqsəd kimi qoyulmuşdur.

Müasir Kəndli - Fermer təsərrüfatlarının inkişaf etdirildiyi dövrdə bu sahənin inlişaf etdirilməsi daha böyük əhəmiyyət kəsb edir.

Akademik M.F.İvanov (1947.s.405) yazırdı:

Yağlıquyruq qoyunlar yerli şəraitə yüksək səviyyədə uyğunlaşmaqla aclığa, yarıtmaz pis qulluq şəraitinə qeyri - adi dözümlülüyü, möhkəmliyi ilə fərqlənir.Bununla belə hər ağır şəraitə onlar özünün təsərrüfat əhəmiyyətli tezyetişkənlik,ətlik,piylik keyfiyyətini itirmirlər (1).

Yeni yaradılmış yarımqaba yunlu krosbred tipli Mil - Qarabağ qoyunları ətlik, yunluq, südlük istiqamətli olmaqla yüksək mhsuldarlığı,yunun keyfiyyəti, iri bədənli yaxşı ətlik forması, böyük həcmli yağlıquyruq, ağır çəkili olması, tezyetişkənliyi, ekiz bala vermə polestrikliyi(25 - 30%), ekstremal köçəri iqlim şəraitinə dözümlülüyü və bir çox başqa bioloji faydalı təsərrüfat xüsusiyyətləri ilə öz əjdadlarından eləcədə digər yerli qoyun cinslərindən üstünlükləri ilə fərqlənir (2).

Məlumdur ki. (Qarabağ və Qaradolaq) Mil – Qarabağ qoyun cinsi əsasən Ağcabədi, İmişli,Beyləqan və onun ətraf rayonlarının Kəndli - Fermer təsərrüfatlarında yetişdirilir.

İş proqramına uyğun olaraq mən 2011- ci ildən Mil - Qarabağ qoyun cinsi üzərində elmi - tədqiqat , seleksiya və damazlıq işlərini Beyləqan rayonunun Kəndli - Fermer təsərrüfatlarında aparıram. (3)

**Qoyunların bonitirovkası.**

Elmi - tədqiqat , seleksiya və damazlıq işlərinin aparılmasında əsas məqsəd müstəqil Respublikamızın bu gününün tələbinə cavab verən qoyun cinslərinin baş sayının çoxaltmaq, onun ət, yun, süd, bala vermə qabliyyətini artırmaq, onun potensial imkanlarını üzə çıxarmaq və ondan geniş istifadə etmək, müsbət keyfiyyət əlamətlərini üzə çıxarmaq, nəsildə möhkəmləndirmək,yunda tünd rəngləri ləğv etmək, keyfiyyətini yüksəltmək, ən yüksək məhsuldar damazlıq heyvanların seçilməsi və taylaşdırılması yolu ilə damazlıq balalar alıb sürülərin təmiri üçün yetişdirməklə Mil - Qarabağ cinsli qiyunların genoloji tipini təkmilləşdirməklə reproduktor massivini yaratmaqdır.

Elmi - tədqiqat, seleksiya və damazlıq işlərinin aparılmasında əsas məqsəd Mil - Qarabağ qoyun cinsinin sürü massivlərinin artırılmasından ibarətdir

Mil - Qarabağ cinsli qoyunların bonitirovkası yarımqaba yunlu Qala - Abşeron və Bozax cinsli qoyunların bonitirəsinə zootexniki tələbata dair təlimata uyğun olaraq aparılmışdır.

Cinsin keyfiyyətini qiymətləndirərkən əsas gösrərici sürüdə damazlıq heyvanların elita və 1- ci sinfin miqdarının çox olması ilə ölçülür. Sürüdə damazlıq heyvanların xüsusi çəkisi 50% -dən nə qədər çox olarsa o qədər proqressiv sayılır. Az olarsa reqressiv adlanır. Bu baxımdan Mil - Qarabağ cinsli qoyunları qiymətləndirdikdə aydın olur ki, bu qoyunların Mil - Qarabağ bölgəsində və onun ətraf rayonlarının qoyunçuluq fermalarında inkişaf etdirilməsi məqsədə uyğundur.

2017 - ci ildə aparılmış bonitirovkanın nəticəsi aşağıdakı cədvəldə göstərilmişdir.

| Qoyunların cins və yaş qrupu | ölçü vahidi | cəmi bonitirovka edilib | O cümlədən | | | sinifin cəmi | sinifdən kənar |
|---|---|---|---|---|---|---|---|
| | | | elita | I-sinif | II-sinif | | |
| Təmiz şişək | baş | 310 | 56 | 118 | 65 | 239 | 7 |
| | % | 100 | 18,0 | 38,1 | 21,0 | 77,1 | 22,9 |
| Təmiz erkək | baş | 380 | 129 | 180 | - | 309 | 71 |
| | % | 100 | 33,9 | 47,4 | - | 81,3 | 18,7 |
| Cəmi | baş | 690 | 185 | 298 | 65 | 548 | 142 |
| | % | 100 | 26,8 | 43,2 | 9,4 | 79,4 | 20,6 |

Elmi-tədqiqat, seleksiya və damazlıq işinin kriteriyası olan ardıcıl bonitirovka aparılmış 690 baş qoyunların sinfi keyfiyyətləri öyrənilməklə damazlıq -

məhsuldarlıq göstəricilərinin təkmilləşməsi tempi müəyyən etdilmişdir:

- S

ürüdə bonitirə edilmiş 690 baş qoyunlardan 483 başı elita və 1-sinif olmuşdur.

Cədvəldən göründüyü kimi, ümumi sürüdə yüksək sinifli (damazlıq keyfiyyətli) qoyunların xüsusi çəkisi (elita və 1- sinif) 70% olmaqla sürünün yarıdan çoxunu təşkil etməklə yüksək məhsuldar genoloji xətt törədxicilərinin genetik potensialından düzgün istifadə edilməsilə əldə edilmiş damazlıq - seleksiya nailiyyətlərinin nəticəsidir.(4-5).

**Diri çəki.**

*Mil-Qarabağ cinsli qoyunların* müxtəlif yaş və cinsiyyət qrupları üzrə örüş – otlaq şəraitində yaz vaxtı diri - çəki göstəriciləri öyrənilərək aşağıdakı cədvəldə göstərilmişdir.

| № | Qoyunların yaş və cinsiyyət qrupu | Miqdarı başla | Diri çəkisi kq | | Orta sutkalıq çəki artımı (qram) |
|---|---|---|---|---|---|
| | | | orta hesabla | maksumum minimum. | |
| 1 | Ana qoyunlar | 35 | 69,4 | 72-63 | - |
| 2 | Törədici qoçlar | 25 | 80, 1 | 85-75 | - |
| 3 | Erkək toğlu(təmir erkək) | 19 | 61,6 | 64-58 | 158,0 |
| 4 | Dişi toğlu(təmir şişək) | 27 | 49,4 | 54,46 | 128,0 |
| 5 | 3 aylıq dişi quzu | 21 | 20,3 | 24,17 | 188,0 |
| 6 | 3 aylıq erkək quzu | 21 | 23,5 | 26,20 | 200.0 |

Qoyunlar çəkilərkən məlum olmuşdur ki, 35 baş ana qoyunun diri çəkisi - 2429 kq olmaqla hər başın orta diri çəkisi - 69,4 kq olmuş, müvafiq olaraq 25 baş törədici qoçun diri çəkisi - 2004 kq olmaqla hər başın orta diri çəkisi - 80,1 kq olmuş 19 baş təmir erkəyin diri çəkisi- 1170 kq olmaqla hər başın orta diri çəkisi - 61,1 kq olmuş, 27 baş təmir - şişəyin diri çəkisi - 1335kq olmaqla hər başın orta diri çəkisi - 49,4 kq olmuş, 3 aylıq 21baş erkək quzunun diri çəkisi - 23,5 kq olmuş və 3 aylıq 21 baş dişi quzunun diri çəkisi - 426 kq olmaqla, hər başın orta diri çəkisi - 20,3 kq olmuşdur.

Qoyunların yaz vaxtı bir başın orta diri çəki göstəriciləri

| Sıra № | Cins və yaş qrupları | O cümlədən (diri çəkilə, kq) | |
|---|---|---|---|
| | | ana qoyun | törədici qoç |
| 1. | Mil-Qarabağ | 69,4 | 80,1 |
| 2. | Qaradolaq | 51,0 | 68,0 |
| 3. | Qarabağ | 43,0 | 62,0 |

Qeyd: Məlumdur ki, qoyunların diri çəki göstəriciləri onların yemlənməsi, bəslənməsi və saxlanması şəraitindən çox asılıdır.Təssüflər olsun hazırda Azərbaycanda qoyunların saxlanması, yemlənmsi, bəslənməsi və yetişdirilməsi üçün lazımi qədər örüş - otlaq sahələri yoxdur (6).

Mil-Qarabağ cinsindən olan qoyunlar damazlıq məqsədilə satıldıqda bazar qiymətindən təxminən 1,5 – 2,0 dəfə baha qiymətə satılır ki, bu da özəl Kəndli - Fermer qoyunçuluq fermalarının iqtisadi gəlirini çoxaldır. Bu cinsin ət, yun, süd, dəri və s. məhsuldarlığı öz əjdadlarından (Qarabağ və Qaradolax) qoyun cinslərindən xeyli üstündür.

Təcrübə obyekti olan Beyləqan rayonunun " Dədəş " və "Vaqif " qoyunçuluq fermalarından 2017-ci ildə bölgənin ayrı-ayrı kəndli-fermer təsərrüfatlarına 530 baş qoyunlar damazlıq kimi satılmışdır.

**Yun məhsuldarlığı.**

Mil-Qarabağ cinsli qoyunların yun məhsuldarlığı orta hesabla törədici qoçlarda 3,4 kq, ana qoyunlarda 2,8 kq, təmir erkəklərdə (erkək toğlularda) 2,2 kq və təmir şişəklərdə (dişi toğlularda) 2,0 kq olmuşdur.

Bildiyimiz kimi qoyunların yun məhsuldarlığı əsasən onun yemlənməsindən, bəslənməsindən və saxlanmasından çox asılıdır.

**Qoyunların yaz yun qırxımı zamanı bir başın orta məhsuldarlıq göstəriciləri:**

| Sıra№ | Cins və yaş qrupları | O cümlədən (yun qırxımı, kq) | |
|---|---|---|---|
| | | ana qoyun | törədici qoç |
| 1. | Mil-Qarabağ | 2,8 | 3,4 |
| 2. | Qaradolaq | 2,4 | 3,2 |
| 3. | Qarabağ | 2,3 | 3,2 |

Mil-Qarabağ cinsli qoyunların yun məhsulu cinsiyyət və yaş qrupları üzrə yunlar çəkilməklə alınmış ilkin materiallar biometrik işlənmişdir.

Yun məhsuldarlığının nəticələri qoyunların cinsiyyət və yaş qrupları üzrə biometrik işlənməsi aşqğıdakı cədvəldə verilmişdir. (kq-la).

| Əsas | n | M + m | Lim | | C |
|---|---|---|---|---|---|
| Törədici qoç | 31 | 2,648+080 | 3,4 – 5,1 | 0,416 | 15,71 |
| Ana qoyun | 54 | 2,648+080 | 1,9 – 3,2 | 0,317 | 15,8 |
| Təmir erkək | 24 | 3,022+1133 | 2,5 – 4,2 | 0,424 | 14,03 |
| Təmir şişək | 34 | 2,076+030 | 1,6 – 2,7 | 0,349 | 16,80 |

Cədvəllərdən aydın olur ki, arzu olunan yarlmqaba yunlu "Mil – Qarabağ" cinsli qoyunların damazlıq qoyunçuluq fermalarında ayrı-ayrı yaş qruplarında, eləcə də sürülərdə yun məhsuldarlığı yüksəkdir (7).

**Qeyd**: Qaradolaq və Qarabağ qoyun cislərinin diri cəki və yun qırxımı barədə cədvəllərdə göstərilən məlumatlar Ak. F.Ə.Məlikov – Qoyunçuluq 1953 il. Səh.236;Ak. M.H. Qoyunçuluq-1965 il.səh. 22; Qisa zootexniki məlumat kitabı -1972-il. Səh 196-197 və Gənc çobanlar nəyi bilməlidir. 1978 il.səh.20 istifadə olunmuşdur.

**ƏDƏBİYYAT**

1.M.F.İvanov – Qoyunçuluq 1947.səh.405. 2.T.H.Sadıqov - Mil-Qarabağ bölgəsində Mil-Qarabağ cinsinin yaradılması haqqında. Az.Aqrar Elm jurnalı 3\2012.,səh.122. 3.T.H.Sadıqov – Mil.Qarabağ qoyun cinsi. Az.Aqrar Elm jurnalı 4\ 2013,səh.172 4.N.A.Nəcəfov - Qala – Abşeron cinsli qoyunların bonitirəsinə zootexniki tələata dair təlimat. Bakı – 1994-cü il. 5.Q.Q.Abdullayev – Bozax cinsli qoyunların bonitirəsinə dair zootexniki tələbata dair təlimat. Bakı – 1994-cü il. 6.T.H.Sadıqov – Mil-Qarabağ qoyun cinsi. Az.Aqrar Elm jurnalı 2\2014,səh.155. 7.T.H.Sadıqov – Mil-Qarabağ cinsli qoyunların məhsuldarlıq göstəriciləri. Az.Aqrar Elm jurnalı 5\2016,səh.123

**О создании Миль – Каравахской породы овец в Мил – Каравахском регионе .**

**Т.Г.Садыгов**

В статье рассказывается о жирнохвостовых полугрубо - щерстяных мясных – щерстяных молочных Мил – Каравахских пород овец быстро привыкающих к местному климату. В Мил – Каравахском регионе. В статье нашло свою отражение научные – исследования проведенные в течение долгих лет.

***Ключевые слова:*** *Бонитировка, живой вес и уражайность щерсти.*

**Adout creation of Mil – Karabakh of sheep in Mil – Karabakh reqion.**

**T.H.Sadıqov**

In the issue is dealt with oiltailed ,halftough woolen mil- kroducinq type of Mil-Karabakh sheep generation used to local crlimate terms in Mil -Karabakh reqion. In the issue are shown scientific recearches carried out durinq lonq period.

***Key words:*** *bonition, live – weiqht, Wool efficiency.*